# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 312**

**Bakı şəhəri, 15 oktyabr 2021-ci il**

***"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 364-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1401 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 15 iyul tarixli 209 nömrəli, 17 iyul tarixli 212 nömrəli, 24 avqust tarixli 240 nömrəli, 28 avqust tarixli 247 nömrəli və 13 sentyabr tarixli 264 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

1.1.1. 1.4.2.2.1.0-cı yarımmaddədə "Məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsinə görə, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsinə görə" sözləri "Məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsinə, məhkəmə aktının surətinin təkrar verilməsinə görə" sözləri ilə əvəz edilsin;

1.1.2. 1.4.2.2.1.1-ci, 1.4.2.2.1.3-cü və 1.4.2.2.1.4-cü yarımmaddələr aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 2 | 1 | 1 | Qiymətləndirilən iddia ərizəsinin verilməsinə görə |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 2 | 1 | 3 | Qiymətləndirilməyən iddia ərizəsinin, məhkəmə əmri haqqında ərizənin, xüsusi icraat qaydasında baxılan iş üzrə ərizənin və müvəqqəti təminat tədbiri barədə ərizənin verilməsinə görə |
| 1 | 4 | 2 | 2 | 1 | 4 | Apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayətinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üçün ərizənin verilməsinə görə |

1.1.3. 1.4.2.2.1.2-ci yarımmaddədə "şəxslərin işə qoşulması barədə ərizələrə görə" sözləri "şəxsin işə qoşulması barədə ərizənin verilməsinə görə" sözləri ilə əvəz edilsin;

1.1.4. aşağıdakı məzmunda 1.4.2.2.1.8-ci və 1.4.2.2.1.9-cu yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 2 | 1 | 8 | İş üzrə icraata xitam verilməsi, iddianın baxılmamış saxlanılması və məhkəmə cərimələrinin qoyulması, müvəqqəti təminat tədbirinin tətbiqi və ya bundan imtina barədə qərardaddan şikayət verilməsinə görə |
| 1 | 4 | 2 | 2 | 1 | 9 | Məhkəmə aktının surətinin təkrar verilməsinə görə |

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222990. "Sair xərclər" maddəsində "məhkəmələrə verilmiş iddia ərizələri" sözləri "məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsi, məhkəmə aktının surətinin təkrar verilməsi" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2021-ci il oktyabrın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 19 oktyabr.- S.9.